

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 130 (21.031)

10 iyul 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətі 20 qəpik

## Rəsmi xronika

İyulun 9-da Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Nikaraqua Respublikasının xarici işlər naziri Samuel Santos Lopezi qəbul etmişdir.

Xarici işlər naziri Samuel Santos Lopezin Azərbaycana səfərinin Nikaraquadan ölkəmizə ilk yüksək səviyyəli rəsmi səfər olmasının önəmini vurğulayan dövlətimizin başçısı gələcəkdə bu cür səfərlərin intensivləşəcəyinə əminliyini ifadə etdi. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsi məsələsinə toxunan Prezident İlham Əliyev Azərbaycan ilə Nikaraqua arasında siyasi, iqtisadi, investisiya qoyuluşu və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.

Nikaraquanın xarici işlər naziri Samuel Santos Lopez ölkəmizə ilk rəsmi səfərindən məmnunluğunu bildirdi. Nazir Azərbaycanda gedən sürətli inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi.



## Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində Naxçıvan Muxtar Respublikasının İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq muxtar respublikanın sosial-iqtisadi inkişafında yeni texnologiyaların və elektron xidmətlərin tətbiqi dairəsinin daha da genişləndirilməsi, habelə bu sahədə kadr potensialının formalaşdırılması və idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Kompüter Təlim-Tədris və İnternet Mərkəzinin və Naxçıvan Muxtar Respublikası İnternet Mərkəzinin bazasında Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində Naxçıvan Muxtar Respublikasının İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi yaradılsın.

2. "Naxçıvan Muxtar Respublikası Kompüter Təlim-Tədris və İnternet Mərkəzinin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2002-ci il 28 yanvar tarixli 69-01/S nömrəli və "Naxçıvan Muxtar Respublikası İnternet Mərkəzinin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 5 aprel tarixli 224-03/S nömrəli sərəncamları ləğv edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 9 iyul 2014-cü il*

## 14 iyul – Azərbaycanın həyatında dönüş günü

*Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Naxçıvan Bölməsində "Heydər Əliyev lektoriyası"nın 61-ci məşğələsi keçirilib.*

Məşğələni giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qeyd edib ki, 14 iyul tarixi Azərbaycan tarixinin ən dəyərli günlərindən biridir. Məhz 1969-cu ilin bu günü dahi öndər Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ölkənin inkişafında, onun uzun müddət yığılıb qalmış problemlərinin həllində və ən əsası, dövlətimizin dünya səviyyəsinə çıxmasında başlanğıc günü olub. Bu dövrdə Azərbaycan iqtisadiyyatında keyfiyyət dəyişiklikləri baş verib. Mövcud müəssisələrin yenidən qurulması, yenilərinin açılması, kənd təsərrüfatına dövlət qayğısının artırılması, müxtəlif sahələr üzrə infrastrukturun yeniləməsi qısa müddət ərzində böyük nailiyyətlərin əldə olunmasına yol açıb. 1969-1982-ci illərdə ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərlikdə olduğu müddətdə ölkə faktiki olaraq uzaqgörənliklə gələcək milli müstəqilliyə hazırlanıb. Bunun üçün lazımi kadr potensialı formalaşdırılıb, milli ruhlu ziyalılar müxtəlif vasitələrlə təqiblərdən və təzyiqlərdən qorunub.

Sonra AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli "14 iyul – Azərbaycanın həyatında dönüş günü" mövzusunda məruzə edib. Məruzədə vurğulanıb ki, Azərbaycan KP MK-nın 14 iyul 1969-cu il plenumunda xalqımızın böyük oğlu Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçilib. Bu təyinatdan cəmi 20 gün sonra keçirilən Azərbaycan KP MK-nın 5 avqust 1969-cu il plenumu respublikada əvvəlki illərdəki nöqsanların tənqid olunduğu dönüş plenumu kimi yaddaşlarda qalıb. Çünki 1969-cu ilin iyuluna qədər respublikanın iqtisadi vəziyyəti ürəkaçan deyildi. Xüsusən kənd təsərrüfatında vəziyyət daha acınacaqlı idi.



Alimin sözlərinə görə, ümummilli liderin hakimiyyətinin birinci dövründə respublikamız, iqtisadiyyatımız tənəzzüldən inkişafa doğru istiqamət götürüb. O dövrün statistikasına nəzər salanda bunu aydın görmək olar. Məsələn, 1971-ci ildə respublikanın neftçıxarma tarixində ilk dəfə olaraq milyardıncı ton neft çıxarılıb. Pambıq istehsalı 1971-ci ildə 381,6 min ton idisə, 1981-ci ildə 1 milyon tona, üzüm istehsalı 381,9 min tondan 1 milyon 616 min tona, taxıl istehsalı 211,9 min tondan 1 milyon 150 min tona çatıb. Bu iqtisadi irəliləyişlə paralel olaraq 70-80-ci illərdə respublikada 500 mindən artıq yeni iş yeri açılıb.

Diqqətə çatdırılıb ki, XX əsrin 70-ci illərindən etibarən quruculuq missiyasını cəsarətlə öz üzərinə götürən böyük tarixi şəxsiyyət Heydər Əliyev uzaqgörən və müdrik siyasəti sayəsində güclü kadr potensialını yaratmaqla milli təhsil quruculuğu istiqamətində sonrakı uğurların bünövrəsini qoyub. O, bütün həyatı boyu şəxsi nümunəsi ilə sübut edib ki, maarif və mədəniyyətimizin, elm və təhsilimizin yorulmaz fədaisi, təəssübkeş himayəçisidir. Digər sahələrdə olduğu kimi, Azərbaycanın təhsil sisteminin son 45 illik inkişafı tarixində əldə etdiyi nailiyyətlər, qazandığı uğurlar, müxtəlif mərhələlərdə, xüsusən 70-80-ci illərdə və müstəqillik dövründə aparılan təhsil islahatlarının hazırlanması və həyata keçirilməsi görkəmli dövlət xadimi Heydər Əliyevin böyük və əvəzsiz xidmətlərinin bəhrəsidir.

Məşğələyə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurub.

*Dünən Naxçıvan Özəl Universitetində "14 iyul – Azərbaycanın həyatında dönüş günü" mövzusunda "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi keçirilib.*

Məşğələni giriş sözü ilə açan universitetin rektoru, professor İsmayıl Əliyev bildirib ki, 1969-cu il iyulun 14-də ümummilli liderimiz Heydər Əliyev respublikanın rəhbəri seçilib. Məhz həmin tarixdən başlayaraq respublika həyatının bütün sahələri köklü islahat və sürətli inkişaf yoluna qədəm qoyub. Dahi rəhbər Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi illərdə gələcək müstəqil dövlətin iqtisadi qüdrətinin təməli qoyulub, respublika inkişaf tempinə görə keçmiş ittifaq miqyasında öncül sıralara çıxıb.

Sonra universitetin Humanitar elmlər kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev "14 iyul – Azərbaycanın həyatında dönüş günü" mövzusunda məruzə ilə çıxış edib. Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra Azərbaycan öz inkişafına görə digər müttəfiq respublikaları xeyli qabaqlayıb. Təsadüfi deyildir ki, bu gün biz müstəqil Azərbaycanı ulu öndər Heydər Əliyevin şah əsəri adlandırırıq. Nəzərə almaq lazımdır ki, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlişi sovet dövrünə təsadüf edirdi. Bu dövrdə müstəqillikdən danışmaq olduqca təhlükəli məsələ idi. Müstəqil Azərbaycan haqqında yalnız düşünmək olardı, müstəqilliyin mənəvi, mədəni, iqtisadi əsaslarını yaratmaq olardı. Müdrik rəhbər Heydər Əliyev də bu yolu tutdu. Azərbaycanın inkişafı üçün sovet dövrünün və dövlətinin verdiyi bütün imkanlardan istifadə etdi. Qısa bir müddətdə – 13-14 ildə Azərbaycan kiçik xammal respublikasından böyük sənaye mərkəzinə çevrildi. Milli-mənəvi dəyərlər inkişaf etdi, Azərbaycan özünün milli ənənələrini yaşamağa başladı.

Elbrus İsayev onu da bildirib ki, tarixdə millətin və dövlətin dünya səhnəsindən yox olmaq həddinə çatmasına dair çox misallar mövcuddur. Lakin hər bir tarixi dövrdə millətin iradəsini və ülvi amalını, dövlətin diplomatiya və strategiyasını, cəmiyyətin həmrəyliyini və milli birliyini birləşdirməyə qadir şəxsiyyət sayəsində həmin dövlətlər öz varlığını davam etdirmiş, millətlər isə dirçəlmişlər. Bu baxımdan ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətinin ikinci mərhələsi təlatümlü, ziddiyyətli, ictimai-siyasi gərginliklərlə səciyyələnən dövrə təsadüf etsə də, özünəxas uzaqgörənlik və siyasi müdriklik, iradə yenilməzliyi, ən əsası, doğma Vətəni düçar olduğu bəlalardan xilas etmək istəyi dahi öndərimizə ölkəmizi sürətlə fəlakətə aparan təhlükəli proseslərdən qorumağa güc vermişdir. Böyük şəxsiyyət 1993-cü ildə xalqın çağırışına cavab verərək Azərbaycanın idarəçilik sükanı arxasına keçmiş, qısa müddətdə milli dövlətçilik doktrinasını irəli sürmüş və onun sürətli icrasına başlamışdır. Təbii ki, bütün bu işlərin reallığa çevrilməsi məhz hakimiyyətinin birinci dövründə yaradılan baza əsasında mümkün olmuşdur.

Məşğələyə universitetin rektoru İsmayıl Əliyev yekun vurub.

* * *

*İyul ayının 9-da Heydər Əliyev adına tam orta məktəbdə "14 iyul – Azərbaycanın həyatında dönüş günü" mövzusunda "Heydər Əliyev lektoriyası"nın növbəti məşğələsi keçirilmişdir. Məşğələni giriş sözü ilə məktəbin direktoru Namiq Məmmədov açmışdır.*

Məşğələdə Naxçıvan Dövlət Universitetinin tərbiyə işləri üzrə prorektoru, fəlsəfə elmləri doktoru, professor Məmməd Rzayev çıxış edərək bildirmişdir ki, 1969-cu ilin 14 iyul günü Azərbaycan tarixinə qızıl hərflərlə yazılmışdır. Məhz həmin gün dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi ölkəmizə quruculuq, inkişaf və tərəqqi bəxş etmişdir. Heydər Əliyev siyasi xətti 1993-cü ildə Azərbaycanı növbəti dəfə dağılmaq, məhv olmaq təhlükəsindən xilas etmiş, ölkəmizə əbədi müstəqillik qazandırmışdır. Həmin vaxt xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan ümummilli lider ölkəni parçalanmaqdan qorumuş, onu yeni inkişaf mərhələsinə çıxarmışdır.

Vurğulanmışdır ki, ümummilli liderimiz Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın da inkişafını daim diqqətdə saxlayır, regionda mövcud olan problemlərin həll olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirirdi.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan sosial-iqtisadi tərəqqi Naxçıvanda günü-gündən geniş vüsət alır. Elə buna görədir ki, həyatımızın bütün sahələrində dinamik inkişaf əldə edilmişdir. Həyata keçirilən iqtisadi islahatlar iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini yaxşılaşdırmışdır. Bütün bunlar isə 1969-cu ilin 14 iyulundan başlanan Heydər Əliyev siyasətinin təntənəsidir.

**Xəbərlər şöbəsi**

# Bələdiyyə sədrlərinin üçüncü muxtar respublika toplantısı keçirilmişdir





*İyulun 9-da bələdiyyə sədrlərinin III muxtar respublika toplantısı keçirilmişdir.*

Yerli əhəmiyyətli sosial məsələlərin həllində bələdiyyələrin rolu və qarşıda duran vəzifələrə həsr olunmuş tədbiri Naxçıvan Muxtar Respublikası Kənd Bələdiyyələri Assosiasiyasının sədri Tofiq Babayev açmışdır.

Toplantıda Naxçıvan Muxtar Respublikası Şəhər Bələdiyyələri Assosiasiyasının sədri, Naxçıvan Bələdiyyəsinin sədri Nuraləm İbrahimovun, Şərur Bələdiyyəsinin sədri Məmmədəli Dadaşovun, Nehrəm Bələdiyyəsinin sədri Tofiq Abutalıbovun, Əbrəqunus Bələdiyyəsinin sədri İntiqam Hüseynovun çıxışları olmuşdur. Çıxışlarda qeyd olunmuşdur ki, ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında bələdiyyə özünüidarəetmə institutunun yaradılması və onlara verilən səlahiyyətlər vətəndaşlarımızın rahat yaşamasına xidmət edir. Bələdiyyələr fəaliyyətə başlayan bir vaxtdan öz işində bu amili əsas götürərək bələdiyyə səlahiyyətləri çərçivəsində insanların gündəlik qayğıları ilə maraqlanır, onların rastlaşdıqları problemlərin aradan qaldırılması, ekoloji tarazlığın qorunması, vergilərin toplanması, sulardan səmərəli istifadə edilməsi və digər bu kimi məsələlərin həll olunmasına çalışır.

Toplantıda çıxış edən Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri Suliddin Əliyev bildirmişdir ki, “Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən, muxtar respublikada bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir. Bu baxımdan yerli özünüidarənin səmərəli təşkili üçün bələdiyyələrin fəaliyyətində qanunçuluğun təmin olunmasına xüsusi diqqət yetirilir, onlara metodoloji yardım göstərilir. Həmçinin bələdiyyə qulluqçularının peşəkarlığının artırılması, bələdiyyə üzvlərinin qabaqcıl təcrübəyə yiyələnmələri üçün silsilə maarifləndirmə tədbirləri diqqət mərkəzində saxlanılır.

Qeyd olunmuşdur ki, bütün bunlara baxmayaraq, hələ də bələdiyyələrin işində müəyyən nöqsanlar qalmaqdadır. Muxtar respublika üzrə fəaliyyət göstərən bələdiyyələrin kargüzarlıq sənədlərinə son 3 ildə baxış keçirilərək 600-dən çox tövsiyə və tapşırıq xarakterli aktlar tərtib edilmişdir. Tövsiyə və tapşırıqlar qeydiyyat jurnallarının mütəmadi olaraq işlədilməsi, bələdiyyə iclaslarının protokollaşdırılması, vətəndaşların müraciətlərinə baxılması, ərizə və şikayətlərin qeydiyyatlarının aparılması, yerli vergilər və ödənişlərlə əlaqədar jurnalların düzgün doldurulması, vergi ödəyicilərinin uçotunun düzgün aparılması, qanunvericiliklə müəyyən olunan vaxtda yerli büdcənin tərtibi və təsdiqi, xərclənməsinə nəzarət, digər maliyyə sənədləşməsi ilə bağlı olmuşdur.

Toplantıda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov çıxış edərək demişdir ki, Azərbaycan xalqının müstəqilliyini əldə etməsindən sonra siyasi və iqtisadi sistemdə baş verən dəyişikliklər ölkədə köklü islahatların həyata keçirilməsini və yeni idarəçilik institutlarının yaradılmasını zəruri edirdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra ölkə həyatının bütün sahələrində olduğu kimi, idarəçilik sistemində də islahatların həyata keçirilməsi üçün qanunvericilik bazası yaradıldı. İlk növbədə, 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi – referendum yolu ilə müstəqil dövlətimizin Konstitusiyası qəbul olundu. Həmin Konstitusiyanın 4-cü bölməsi Azərbaycan Respublikasında yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə həsr olunmuşdur.

Müasir dövrdə dünya dövlətləri təcrübəsində bələdiyyələr yerli əhalinin hüquq və mənafelərini daha dərindən müdafiə edən, onlara daha yaxın olan, yerli əhali ilə daim sıx əlaqədə fəaliyyət göstərən seçkili, demokratik təsisatlardır. Bələdiyyə orqanlarının ümumi, bərabər və birbaşa seçki hüququ əsasında müvafiq yerli ərazi vahidinin əhalisi tərəfindən bilavasitə seçilməklə formalaşdırılması demokratik əsasların ümumi göstəricisidir. Bələdiyyələrin təşkil olunmasındakı demokratik dəyərlər yerli əhalinin mərkəzi hakimiyyət orqanlarından fərqli olaraq, bu orqanların işində daha yaxından iştirak etmələrinə, habelə problemlərin həlli üçün dərhal, bilavasitə onlara müraciət etmələrinə zəmin yaradır.

Yerli özünüidarəetmə orqanları olan bələdiyyələr ilk dəfə 1999-cu il dekabrın 12-də keçirilmiş seçkilərdən sonra fəaliyyətə başlamışdır. Bələdiyyələrin fəaliyyətə başladığı ilk gündən onların normal fəaliyyətinin və üzərlərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi üçün dövlət tərəfindən zəruri köməkliklər göstərilmişdir. 1999-cu ilin dekabrında keçirilən ilk bələdiyyə seçkiləri zamanı ümummilli liderimiz Heydər Əliyev xalqa müraciətində deyirdi: ***“Biz Azərbaycanda qeyri-dövlət, tam müstəqil xarakterli yerli özünüidarəetmə orqanları yaradırıq, bu həm də demokratiyanın inkişafı deməkdir, eyni zamanda ölkəni idarəetməkdə vətəndaşlarımıza imkanlar yaradılmasının göstəricisidir. Yerli özünüidarəetmə orqanları yerlərdə səlahiyyətləri çərçivəsində çox işlər görə bilərlər. Beləliklə, onlar dövlətin yükünü müəyyən qədər yüngülləşdirəcəklər”.***

Qeyd olunmuşdur ki, muxtar respublikada fəaliyyət göstərən bələdiyyələr də yarandığı gündən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hörmətli Vasif Talıbovun diqqət və qayğısı ilə əhatə olunmuşdur. Muxtar respublika bələdiyyələri üçün zəruri olan şərait yaradılmış, onların normal fəaliyyəti təmin olunmuş, lazımi köməkliklər göstərilmişdir. Ali Məclis Sədrinin birbaşa rəhbərliyi altında muxtar respublikada quruculuq və abadlıq işləri geniş vüsət almışdır. Həyata keçirilən quruculuq işlərindən bələdiyyələrə də pay düşmüşdür. Belə ki, son illərdə müasir tələblərə cavab verən kənd mərkəzlərinin tikintisi nəticəsində bələdiyyələr üçün iş otaqları ayrılmış və onlara yüksək şərait yaradılmışdır.

“İkinci toplantıdan ötən dövr ərzində bələdiyyələrin həyatında bir sıra yeniliklər olmuş, qanunvericilik bazası təkmilləşdirilmiş, bələdiyyələrin cəmiyyətdə nüfuzunun artması istiqamətində mühüm işlər görülmüşdür”, – deyən Azər Zeynalov bildirmişdir ki, bir çox bələdiyyələr yerli əhəmiyyətli məsələlərin həllində müsbət təcrübə əldə etmiş, yerli əhəmiyyətli yolların saxlanılması, içməli və suvarma suyu ilə təchizat, yerli ekoloji problemlərin həlli və digər sahələrdə müəyyən işlər görmüşlər. Bələdiyyələrin əldə etdiyi uğurlarla yanaşı, problemləri və nöqsanları da olmuşdur. Nöqsanlara yol verilməsinin əsas səbəbləri bələdiyyə üzvlərinin hüquqi biliyinin az olması, qanunvericiliyin düzgün mənimsənilməməsi, işə yanaşmada yol verilən çatışmazlıqlar olmuşdur. Bu gün bələdiyyələrin yerli əhəmiyyətli məsələlərin həllində rolu çox azdır. Bunların da müxtəlif səbəbləri vardır. İlk növbədə, bələdiyyələrin maliyyə resurslarının aşağı olmasını və ya heç olmamasını qeyd etmək olar. Onların büdcələri nəinki hansısa layihələrin həyata keçirilməsinə, heç cari fəaliyyətlərinin qurulmasına da çatmır. Bunun əsas səbəbi isə onların təşkilatçılığının aşağı olması, yerli vergi və ödənişlərin toplanmaması, onların öz vəzifələrini, ümumilikdə, yerinə yetirməməsidir.

Bələdiyyə üzvlərinin əsas vəzifəsi qəbul olunmuş hər bir qanunvericilik aktını mənimsəmək və əhatə etdiyi ərazi üzrə əhalinin diqqətinə çatdırmaqdır. Aid dövlət orqanları bələdiyyə üzvlərinin idarəetmə qabiliyyətinin və peşəkarlıq səviyyələrinin yüksəldilməsi üçün onları seminarlara cəlb etməli, tədris kursları təşkil etməlidirlər. Bununla yanaşı, bələdiyyələr fəaliyyətini yerli icra hakimiyyəti orqanları ilə əlaqəli quraraq qarşılarında duran vəzifələrin, məsələlərin öhdəsindən gəlmək üçün çalışmalıdırlar.

Bildirilmişdir ki, muxtar respublika bələdiyyələrində mövcud nöqsanlardan biri də kargüzarlıq işinin aşağı səviyyədə olmasıdır. Bununla əlaqədar 2006-cı il iyulun 31-də Ali Məclis Sədrinin yanında bələdiyyələrlə bağlı keçirilən müşavirədə bu sahədə ciddi dönüş yaradılması üçün müvafiq tapşırıqlar verilmişdir. Həmin tapşırıqlar yerinə yetirilərək aidiyyəti dövlət orqanları tərəfindən bir sıra işlər görülmüş, kargüzarlığın yaxşılaşdırılması sahəsində müəyyən irəliləyişlər əldə olunmuşdur. Lakin bu sahədə hələ xeyli işlər görülməlidir.

Bələdiyyələrin fəaliyyətində daha tez-tez rast gəlinən qanunsuzluqlardan biri də torpaq qanunvericiliyinin tələblərinin pozulması idi. Bu cür hallar muxtar respublika rəhbərini narahat etmiş və yol verilmiş qanun pozuntularının aradan qaldırılması üçün müvafiq orqanlara tapşırıqlar verilmişdir. Ali Məclis Sədrinin tapşırıqları qısa müddətdə yerlərdə aid orqanların rəhbərlərinin iştirakı ilə müzakirə edilərək öz həllini tapmışdır. Araşdırmalar göstərir ki, bələdiyyələrdə vergitutma obyektləri haqqında məlumat bazası yoxdur. Əvəzində isə onlar dövlətdən daha çox dotasiya alınmasına və ya əlavə səlahiyyətlər verilməsinə çalışırlar. İşə bu cür münasibət yanlışdır. Bələdiyyələr kifayət qədər maliyyə potensialı olduğu halda, büdcələrini formalaşdıra bilmirlər. Bu sahədə ciddi dönüş yaradılmasına ehtiyac vardır. Bələdiyyələrə dövlət büdcəsindən ayrılan vəsaitlərin istifadəsi və ayrılma qaydasında da ciddi dönüş yaradılmalıdır. Bələdiyyələr yerli büdcəyə daxil olan, dövlət tərəfindən ayrılan dotasiya vəsaitlərini bələdiyyə üzvlərinin maaşına, yaxud digər cari xərclərə deyil, məqsədli sosial proqramlara sərf etməlidirlər. Maliyyə imkanlarının artırılması üçün qanunvericiliklə verilmiş səlahiyyətlərdən düzgün istifadə etmək lazımdır.

Ali Məclis Sədrinin birinci müavini qeyd etmişdir ki, bu gün bələdiyyələrə maliyyə imkanlarını artırmaq üçün geniş səlahiyyətlər verilmiş və hərtərəfli şərait yaradılmışdır. Maliyyə imkanları geniş olduqda bələdiyyənin yerli əhəmiyyətli məsələlərin həllində fəallığı da artar. Bələdiyyələrin yerlərdə yeni tikilən bina və avadanlığın qorunub saxlanılmasında da fəaliyyətləri çox zəifdir. Qurulub yaradılanları qorumaq hər bir vətəndaşın borcudur. Bələdiyyələrin də bu işlərdə fəal iştirakı vacibdir.

Müasir dünyada ekoloji tarazlığın qorunması öz aktuallığı ilə seçilir. Buna görə də muxtar respublikada keçirilən yaşıllaşdırma tədbirlərində bələdiyyələr öz mütəşəkkil iştirakları ilə fərqlənməli və yerli ekoloji proqramlar hazırlayıb həyata keçirməlidirlər.

Azər Zeynalov demişdir ki, bu il ölkəmizdə bələdiyyə seçkiləri keçiriləcəkdir. Seçkilərdə seçicilər bələdiyyə işinin məsuliyyətini başa düşən, vəzifələrinin öhdəsindən gəlməyə qadir olan namizədlərə səs verəcəklər.

Toplantıda müzakirə olunan məsələ ilə bağlı qərar qəbul edilmişdir.

Sonda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 8 iyul tarixli Sərəncamı ilə “Rəşadətli əməyə görə” nişanı ilə təltif edilmiş bir qrup bələdiyyə sədrinə nişanlar təqdim olunmuşdur.

Təltif olunanlar fəaliyyətlərinə verilən yüksək qiymətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlıqlarını bildirmişlər.

**“Şərq qapısı”**

# 2014-cü ilin birinci yarısında tikinti-quruculuq işlərinin həcmi artmışdır

*İyulun 9-da Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsində cari ilin ilk altı ayının yekunlarına həsr edilmiş kollegiya iclası keçirilmişdir. İclası Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov açmışdır.*

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Cəfər Muxtarov məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, 2014-cü ilin muxtar respublikamızda “Muxtariyyət ili” elan olunması inşaatçıların qurub-yaratmaq əzmini daha da artırmışdır. Sosial-iqtisadi sahədə davamlı inkişaf tempinin təmin edilməsi cari ilin birinci yarısını da uğurla başa vurmağı şərtləndirmiş, nəticədə, yanvar-iyun ayları ərzində muxtar respublikada 82 milyon 470 min 800 manat həcmində tikinti işləri yerinə yetirilmişdir.



Ümummilli lider Heydər Əliyevin “Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir” fikrini xatırladan məruzəçi qeyd etmişdir ki, bəhs edilən dövrdə muxtar respublikada 2 məktəbəqədər təhsil müəssisəsi tikilmiş, 2 tam orta məktəb binası yenidən qurulmuş, 3 tam orta məktəb, 1 məktəbdənkənar təhsil müəssisəsində təmir, yaxud əsaslı təmir işləri aparılmışdır. Cari ilin əvvəlindən muxtar respublika üzrə müxtəliftəyinatlı 73 obyekt istifadəyə verilmiş, 200 obyektdə isə tikinti-quraşdırma, yenidənqurma və ya təmir işləri davam etdirilir.

Muxtar respublikada səhiyyə və mədəni xidmətlərin günün tələbləri səviyyəsində qurulmasında yeni səhiyyə və mədəniyyət obyektlərinin tikintisinin və mövcud olanlarının əsaslı təmirinin əhəmiyyəti nəzərə alınaraq hazırda 18 səhiyyə, 13 mədəniyyət obyektində tikinti, yenidənqurma, əsaslı təmir və bərpa işləri davam etdirilir.

Vurğulanmışdır ki, yeni yaradılan infrastruktur obyektlərindən biri də qəsəbə və kənd mərkəzləridir. Bu baxımdan muxtar respublikanın rayon və kənd yerlərində yerli idarəetmə orqanları üçün normal iş şəraitinin yaradılması məqsədilə bir sıra tədbirlər həyata keçirilmiş, 1 kənd mərkəzi, 2 xidmət mərkəzi tikilərək istifadəyə verilmiş, 13 kənd mərkəzində tikinti, 1-də təmir, 8 xidmət mərkəzində isə yenidənqurma işləri davam etdirilir.

Əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə cari ilin ilk altı ayında Naxçıvan şəhərindəki Əziz Əliyev küçəsində yerləşən 20 mənzilli 43 nömrəli, 2 ədəd 30 mənzilli 45 və 47 nömrəli yaşayış binaları tikilərək, Şərur şəhərindəki Heydər Əliyev prospektindəki 51 nömrəli binada yenidənqurma işləri aparılaraq istifadəyə verilmiş, Şərur şəhərində 1 binanın yenidən qurulması, Şərur şəhərində 1, Culfa şəhərində 1 binanın, Şahbuz şəhərində Ahıllar evinin təmiri, 3 binanın fasadının üzlənməsi davam etdirilmişdir. 5 binada istilik sisteminin təmiri, 1 binada daxili su və kanalizasiya sisteminin qurulması, 5 küçə və məhəllədə su və drenaj xəttinin çəkilməsi başa çatdırılmış, bu səpgidən olan 8 obyektdə isə işlər davam etdirilir.

Bildirilmişdir ki, muxtar respublikada əlverişli yol-nəqliyyat infrastrukturunun yaradılmasına göstərilən qayğının nəticəsidir ki, əvvəlki illərdə olduğu kimi, cari ilin birinci yarısında da işlər uğurla davam etdirilmişdir. Avtomobil yollarında torpaq işlərinin aparılması, asfalt-beton örtüyünün salınması, istinad divarlarının çəkilməsi, körpü tikintisi və digər istiqamətlər üzrə hazırda 32 obyektdə iş aparılır.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Asəf Məmmədov yekun vurmuşdur.

**Xəbərlər şöbəsi**

# Cari ilin ilk 6 ayının yekunları müzakirə edilir

***Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında qarşıya qoyulan vəzifələr və cari ilin ilk 6 ayında görülən işlərlə əlaqədar Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində kollegiya iclası keçirilmişdir.***

İclası giriş sözü ilə gənclər və idman naziri Azad Cabbarov açaraq məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi 2014-cü ilin birinci yarısında öz işini təsdiq olunmuş iş və tədbirlər planına uyğun qurmuş, nöqsanların aradan qaldırılması üçün məqsədyönlü tədbirlər həyata keçirmiş, idman və gənclər sahəsində əsaslı dönüş yaradılmasına çalışmışdır. Ümumilikdə, nazirlik tərəfindən 2014-cü ilin ilk 6 ayı ərzində gənclərlə iş üzrə 59 tədbir icra olunmuşdur.

“Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəmizdə vətənpərvər, sağlamdüşüncəli yeni nəslin yetişdirilməsi sahəsindəki xidmətləri misilsizdir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş gənclər və idman siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir”, – deyən nazir diqqətə çatdırmışdır ki, muxtar respublikada da gənclərə və idmanın inkişafına xüsusi diqqət və qayğı göstərilir.



Naxçıvan Muxtar Respublikasında təşkil edilən tədbirlər barədə danışan Azad Cabbarov bildirmişdir ki, 2014-cü ilin birinci yarımili ərzində kütləvi bədən tərbiyəsi və idman üzrə 63 tədbir təşkil olunmuş, idmançılarımızın 20-yə yaxın dünya, Avropa, beynəlxalq və ölkə səviyyəli yarışlarda iştirakı təmin edilmişdir. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, muxtar respublikanın idman federasiyaları və aidiyyəti təşkilatlar tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 91 illiyi ilə əlaqədar muxtar respublikada müxtəlif idman yarışları keçirilmiş, federasiyaların internet saytları yaradılmışdır. “Araz-Naxçıvan” peşəkar futbol komandası Azərbaycan çempionatının I divizionunda qalib olmuşdur. Həmçinin ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə “Naxçıvan Open-2014” Beynəlxalq Şahmat Festivalının, sərbəst güləş üzrə gənclər arasında “Naxçıvan Kuboku” uğrunda beynəlxalq turnirin və paralimpiyaçılar arasında qolbol paralimpiya idman növü üzrə beynəlxalq yarışın keçirilməsi Naxçıvanda idmanın kütləviliyinin artırılması baxımından böyük əhəmiyyət kəsb edir.

Nazir qeyd etmişdir ki, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi idman federasiyaları ilə birgə qarşıya qoyulmuş tapşırıqları 2014-cü ilin ikinci yarımili ərzində də özünün gələcək fəaliyyət istiqamətləri kimi müəyyənləşdirməli, qarşıdakı dövr ərzində işlərini günün tələbləri səviyyəsində qurmağa çalışmalı, nöqsanların aradan qaldırılması üçün məqsədyönlü tədbirlər həyata keçirməli, idman və gənclər sahəsində də tədbirlərin səviyyəsini daha da yüksəltməlidir.

Sonra Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədovun, Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimovun, Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanovun və Sədərək Rayon Gənclər və İdman İdarəsinin rəisi Etibar Əliyevin çıxışları olmuşdur.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov yekun vurmuşdur.

* * *



Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında qarşıya qoyulan vəzifələrin icrası ilə əlaqədar dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində də kollegiya iclası keçirilmişdir. Kollegiya iclasında təhsil naziri Piri Nağıyev çıxış edərək bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə hər il olduğu kimi, bu ilin ilk 6 ayı ərzində də muxtar respublikamızda məktəb binalarının tikintisi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi davam etdirilmişdir. Belə ki, Naxçıvan şəhərində 9 nömrəli, Şərur rayonunda Püsyan, Dizə, Kürkənd, Axura kənd tam orta və Diyadin kənd ümumi orta, Babək rayonunda Nehrəm kənd 2 nömrəli, Qahab kənd tam orta, Naxışnərgiz kənd ümumi orta, Ordubad rayonunda Ordubad şəhər 3 nömrəli, Aşağı Əylis kənd, Culfa rayonunda Bənəniyar kənd, Şahbuz rayonunda Şahbuz şəhər 2 nömrəli, Nursu kənd, Kəngərli rayonunda Qarabağlar kənd 1 nömrəli tam orta məktəblərinin, eyni zamanda Kəngərli və Sədərək Rayon Təhsil şöbələri üçün binaların tikintisi və ya əsaslı şəkildə yenidən qurulması həyata keçirilir. Bundan başqa, Şərur rayonunda Cəlilkənd, Babək rayonunda Qoşadizə, Güznüt kənd, Ordubad rayonunda Ordubad internat tam orta məktəblərində əsaslı təmir və yenidənqurma işləri davam etdirilir.

Qeyd olunmuşdur ki, dərs ili başa çatarkən ümumi və tam orta təhsil bazaları üzrə təhsilini başa vurmuş məzunların buraxılış imtahanlarında iştirakı təmin edilmişdir. Ümumi orta təhsil bazası üzrə 3962 nəfər, tam orta təhsil bazası üzrə ümumtəhsil məktəblərimizi bitirmiş 3993 məzunun hamısı 13 iyun 2014-cü tarixdə keçirilmiş buraxılış imtahanlarında iştirak etmişdir. Tam orta ümumtəhsil məktəblərimizi bitirmiş məzunlardan 14 nəfəri qızıl, 13 nəfəri isə gümüş medala layiq görülmüşlər. Ümumtəhsil məktəblərimizi bitirmiş bütün məzunlarımıza bitirdiyi təhsil pillələrinə uyğun təhsil sənədləri verilmişdir.

Bildirilmişdir ki, cari ildə məktəbi bitirən 3993 nəfərdən 3115-i, yəni məzunlarımızın 78,01 faizi ali və orta ixtisas məktəblərinə qəbul olunmaq üçün sənəd vermişdir. Ümumilikdə, muxtar respublika üzrə bu ilki məzunlardan 3115 nəfəri sənəd vermişdir ki, bunlardan 1557 nəfəri oğlan, 1558 nəfəri qızlardır. Məzunlar arasında xüsusi təyinatlı ali təhsil müəssisələrinə sənəd verənlərin sayı 236 nəfər olmuşdur.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

* * *

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində 2014-cü ilin ilk 6 ayının yekunları ilə bağlı kollegiya iclası keçirilmişdir. Kollegiya iclasını ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov açmışdır.***

Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini Ziyafət Əliyev məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş ekoloji siyasət xətti əvvəlki illərdə olduğu kimi, cari ilin ilk yarımilində də uğurla davam etdirilmiş, təbii sərvətlərdən istifadəyə, çirkləndirici maddələrin ətraf mühitə atılması və axıdılmasına görə ekoloji ödənişlərin təyin edilməsi və icrasına nəzarətin həyata keçirilməsi diqqətdə saxlanılmışdır. Muxtar respublika ərazisində fəaliyyət göstərən 47 müəssisəyə 51 min 312 manat məbləğində ekoloji ödəmə haqqı tətbiq edilmiş və birinci yarımildə 53 faiz ödənişin icrası həyata keçirilmişdir. Qeyd olunmuşdur ki, ətraf mühitin mühafizəsi, ekoloji qanunazidd halların qarşısının alınması məqsədilə aidiyyəti orqanlarla birlikdə 41yoxlama-reyd həyata keçirilmiş, 1 qanunazidd hal aşkar edilmiş və lazımi tədbir görülmüşdür.

Vurğulanmışdır ki, “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”na uyğun olaraq, dağlıq və orta dağlıq ərazilərdə meyvəçiliyin inkişaf etdirilməsi, həmin ərazilərin iqlim və torpaq xüsusiyyətlərinə uyğunlaşdırılmış ağacların, tinglərin yetişdirilməsi və yeni meyvə bağlarının salınması sahəsində nəzərdə tutulan tədbirlər uğurla icra edilmişdir. Bu məqsədlə Şahbuz Dövlət Təbiət Qoruğuna bufer ərazidə 4 hektar, Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı ərazisində 1,5 hektar, “Arpaçay” Dövlət Təbiət Yasaqlığı ərazisində 1 hektar, Ordubad Dövlət Yasaqlığı və “Arazboyu” Dövlət Təbiət Yasaqlığı ərazilərində 1,5 hektar sahədə meyvə bağları salınmışdır. Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı müvafiq proqramına əsasən, hesabat dövründə muxtar respublika ərazisində, ümumilikdə, 110 hektardan çox sahədə meyvə bağları salınmışdır.

“Dövlət meşə fondu torpaqlarında, meşə fonduna daxil olmayan təbiət ərazilərində mövcud yaşıllıqların qorunması, bərpası və artırılması sahəsində tədbirlər davam etdirilmişdir”, – deyən Ziyafət Əliyev əlavə etmişdir ki, 2014-cü ilin yaz əkini mövsümündə muxtar respublika ərazisində, ümumilikdə, 286,2 hektar sahədə yaşıllaşdırma tədbirləri həyata keçirilmiş, 228 min ədəd ağac və bəzək kolları əkilmişdir.

Qeyd olunmuşdur ki, muxtar respublika ərazisində xüsusi mühafizə olunan təbiət obyektlərinin yaradılması, brakonyerliyə qarşı ciddi mübarizə tədbirlərinin görülməsi və ən əsası ov mövsümünün bağlı olması fauna ehtiyatlarının say tərkibinin ötən illərdə ayrı-ayrı növlər üzrə 20-25 faiz artımına səbəb olmuşdur.

Sonra məruzə ətrafında nazirliyin əməkdaşlarından Azər Məmmədov və Mayis Əliyev çıxış etmişlər.

Tədbirə ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov yekun vurmuşdur.

***Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında qarşıya qoyulan vəzifələr və cari ilin ilk 6 ayında görülən işlərlə əlaqədar Babək Rayon İcra Hakimiyyətində müşavirə keçirilmişdir. Müşavirəni giriş sözü ilə Babək Rayon İcra Hakimiyyətinin başçısı Elçin Hüseynəliyev açaraq məruzə ilə çıxış etmişdir.***

Qeyd olunmuşdur ki, əvvəlki illərdə olduğu kimi, “Muxtariyyət ili”ndə də Babək rayonunda tikinti-quruculuq işləri geniş vüsət almış, iqtisadi göstəricilər yüksəlmişdir. Azərbaycan Respublikası Prezidentinin “Naxçıvan Muxtar Respublikasının Babək rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında” 5 mart 2013-cü il tarixli Sərəncamına əsasən, 13 yaşayış məntəqəsini əhatə edən Hacıvar-Vayxır-Sirab avtomobil yolu yenidən qurularaq istifadəyə verilmişdir.

Babək qəsəbəsində Babək Rayon Mərkəzi Xəstəxanası və Babək qəsəbə uşaq bağçası üçün yeni binalar tikilib istifadəyə verilmişdir. Hazırda Babək qəsəbəsində rabitə evi üçün yeni inzibati bina tikilir.

Bundan başqa, Cəhri kəndində sahə xəstəxanasının və 1 nömrəli tam orta məktəb binalarında yenidənqurma işləri aparılmış, xidmət mərkəzi üçün yeni bina tikilib istifadəyə verilmişdir.

İcra başçısının sözlərinə görə, rayonda 2014-cü ilin məhsulu üçün 15 min 664 hektar sahədə əkin aparılmışdır.

“Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə Babək rayonunda bir sıra tədbirlər keçirilmişdir”, – deyən Elçin Hüseynəliyev bildirmişdir ki, rayondakı məktəbdənkənar müəssisələrin təşkilatçılığı ilə Babək qəsəbə tam orta məktəbində şagirdlərin əl işlərindən ibarət rəsm sərgisi təşkil edilmiş, ümumtəhsil məktəbləri arasında inşa yazı və şeir müsabiqələri, bilik, şahmat, dama, yüngül atletika yarışları, həmçinin uşaq musiqi məktəblərinin şagirdləri arasında xalq çalğı alətləri və ifaçılıq üzrə müsabiqələr keçirilmişdir. Bu istiqamətdə tədbirlər davam etdirilir.

Bunlarla yanaşı, rayonun ümumtəhsil məktəbləri şagirdlərinin iştirakı ilə Heydər Əliyev Muzeyində, Naxçıvanşünaslıq Mərkəzində, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq və Babək Rayon Tarix-Diyarşünaslıq muzeylərində açıq dərslər keçilmişdir. Həmçinin Babək Rayon Mədəniyyət Evinin, kənd mədəniyyət evlərinin və Babək rayonundakı uşaq musiqi məktəblərinin kollektivləri rayonun Şıxmahmud, Cəhri, Zeynəddin kəndlərində kənd əhalisi qarşısında konsert proqramları ilə çıxış etmişlər.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

* * *

***Şahbuz Rayon İcra Hakimiyyətində də 2014-cü ilin birinci yarısında Şahbuz rayonunun sosial-iqtisadi inkişafının yekunları və dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasından irəli gələn vəzifələrə həsr olunmuş müşavirə keçirilmişdir.***



Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev müşavirədə məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, hesabat dövründə Şahbuz şəhərində 220 yerlik 3 mərtəbəli uşaq bağçasının, 216 şagird yerlik yeni məktəb binasının, Şahbuz şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəlik üçün 2 mərtəbəli inzibati binanın, Gömür və Nursu kəndlərində kənd və xidmət mərkəzlərinin, Nursu kəndində 234 şagird yerlik məktəb binasının, Xalq şairi Məmməd Arazın ev-muzeyinin tikintisi, Gömür kəndində məktəb binasının əsaslı şəkildə təmiri davam etdirilmişdir.

“Ərzaq təhlükəsizliyinin təmin olunmasında kənd təsərrüfatı məhsulları istehsalının yüksəldilməsi, bu sahədə səmərəliliyin artırılması istiqamətində rayonda məqsədyönlü tədbirlər həyata keçirilmişdir”, – deyən icra başçısı diqqətə çatdırmışdır ki, “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı” digər bölgələrdə olduğu kimi, Şahbuz rayonunda da aqrar sahənin intensiv inkişafına, məhsul istehsalının artırılmasına əsaslı şərait yaratmışdır.

İcra başçısının sözlərinə görə, rayon iqtisadiyyatının əsasını təşkil edən və əhalinin əsas məşğulluq sahəsi olan aqrar sahənin inkişafı məqsədilə şəxsi mülkiyyətdə olan torpaqlardan səmərəli istifadə edilməsinə göstərilən dövlət qayğısı sayəsində bu sahəyə maraq xeyli artmış, bu ilin məhsulu üçün 1129 hektar sahədə payızlıq taxıl əkini keçirilmiş, cari ilin yazında 201 hektar sahədə yazlıq arpa əkilmiş, ümumilikdə isə 1330 hektar sahədə taxıl əkini aparılmışdır. Həmçinin cari ildə 420 hektar sahədə kartof, 279 hektar sahədə tərəvəz, 239 hektar sahədə dənli-paxlalı, 6 hektar sahədə isə bostan bitkiləri əkilmişdir.

Rayonda heyvandarlığın inkişafından da danışan Nurəddin Quliyev vurğulamışdır ki, cari ilin birinci yarısında rayon əhalisinin fərdi təsərrüfatlarında 23 min 10 baş iribuynuzlu, 121 min 760 baş xırdabuynuzlu heyvan, 96 min 354 ədəd quş, 19 min 650 arı ailəsi saxlanılmışdır ki, bu da 2013-cü ilin analoji dövrü ilə müqayisədə 310 baş iribuynuzlunun, 2470 baş xırdabuynuzlunun, 1400 ədəd quşun, 1000 arı ailəsinin artımı deməkdir. Bu artım tempinin nəticəsidir ki, 2014-cü ilin ötən dövründə 1127 ton ət, 5 min 795 ton süd, 3 milyon 24 min ədəd yumurta istehsal olunmuşdur.

Bundan başqa, “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”ndan irəli gələn vəzifələrin icrası da daim diqqət mərkəzində saxlanılmış, rayonda 9,4 hektar sahədə yeni bağ salınmışdır.

Vurğulanmışdır ki, 2014-cü ilin birinci yarımilində rayon büdcəsinin gəlirlər üzrə mədaxili 219 min manat plan tapşırığa qarşı 231 min 588 manat və ya 105,7 faiz icra edilərək büdcəyə plandan əlavə 12 min 588 manat artıq vəsait daxil olmuşdur. Cari ildə büdcə vəsaitlərindən düzgün və səmərəli istifadə olunmasına diqqət artırılmış, bank, maliyyə, vergi sisteminin sağlamlaşdırılması və təkmilləşdirilməsi sahəsində əməli tədbirlər həyata keçirilmişdir.

Sonra məruzə ətrafında rayon İcra Hakimiyyəti başçısının müavini Ələddin Ağayevin, Maliyyə Şöbəsinin müdiri Şahin Abbasovun, Statistika İdarəsinin rəisi Nurlan Quliyevin çıxışları olmuşdur.

Müşavirəyə Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Nurəddin Quliyev yekun vurmuşdur.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Texniki-Peşə və Sürücülük Məktəbində təhsil alanların sayı artır

2012-ci ildə Naxçıvan Texniki-Peşə və Sürücülük Məktəbi üçün hərtərəfli tədris şəraitinə və maddi-texniki təchizata malik olan kompleksin istifadəyə verilməsi ixtisaslı kadrların hazırlanması istiqamətində görülən tədbirlərin miqyasını daha da genişləndirmişdir. Hazırda məktəbdə yürüyüş təlimlərinin keçilməsi üçün 8 avtomobil, minik və yük avtomobillərinin bazasında yığılmış 2 avtotəlim maşını vardır. Məktəbdə yol hərəkəti qaydaları üzrə nəzəri və nəqliyyat vasitələrinin idarəetmə məsələləri üzrə təcrübi təlimlər keçilir. Təlim kursu başa çatdıqdan sonra müdavimlər bilik, bacarıq və vərdişlərinin, eləcə də sürücülük hazırlıqlarının səviyyəsini müəyyən etmək üçün imtahan verirlər.

2014-cü ilin ikinci rübündə məktəb öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmuşdur. Bu müddətdə məktəbdə 30 qrup açılmışdır ki, onlardan da 2-si qadın qrupu olmuşdur. Ötən 3 ayda məktəbdə təhsil başa vuran 891 müdavimə şəhadətnamə verilmişdir. Həmin müdavimlərdən 60-ı qadınlar, 180-i isə Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən göndərilən gənclər olmuşdur. Davamiyyəti və mənimsəmə qabiliyyəti aşağı olduğuna görə 9 müdavim məktəbdən xaric edilmişdir.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Texniki-Peşə və Sürücülük Məktəbi peşəkar sürücülərin və ixtisaslı kadrların hazırlanması sahəsində fəaliyyətini davam etdirir.

**“Şərq qapısı”**

## Bərəkətli zəmilər

***O, maşından düşüb kombayna tərəf addımladı. Kombayncı Bahaddin Nağıyev köməkçisi, taxıldaşıyan maşının sürücüsü ilə birlikdə taxılbiçənin sazlığını yoxlayırdılar.***

Onlar bir anlığa işdən ayrılıb: “Salam, Aqil müəllim, sabahın xeyir”, – dedilər. Aqil gülümsünərək: “Nə vaxtdan saat doqquz kəndlinin sabahı olub? Kənd adamı səhər tezdən, beşlə altı arasında bu sözü işlətməlidir”, – deyə sözünə davam etdi: “O ki Günəşin çıxmasını iş üstündə qarşılamadı, deməli, tənbəldir, canına əziyyət verən deyil. Mən bura gəlincə tezdən durub malqaranı yerbəyer eləmişəm, o biri taxıl sahələrinə də baş çəkmişəm”.

Aqil Məmmədov beş addımlıqdakı buğda zəmisinə tərəf addımlayıb dayandı. Zəmidən sünbül qırıb ovucunun içində ovxaladı. Bahaddinin nəzəri onda idi:

– Hə, necədi, biçinə başlamaq olar?

– Hələ bir az gözləsək, yaxşıdır. Axşamın şehi tam çəkilməyib. Siz işinizdə olun, mən də təpənin o üzündəki sahəyə baxım, gəlirəm.

Çox çəkmədi, Aqil Məmmədov geri qayıtdı. Artıq saat 10-un yarısı idi. Günəşin hərarəti bayaqkı ilə müqayisədə xeyli artmışdı. O, yenə sünbüldən qırıb yoxladı. Üzünü kombaynçıya, onun köməkçisinə tutaraq:

– Başlamaq olar, işiniz avand olsun, – dedi.

Kombayn zəmiyə yan aldı. Pərlər hərlənməyə başladı. Ətrafda yaşıl olan nəsə gözə dəymir. Hər tərəf sapsarı taxıl zəmiləridir. Bir qədər uzaqda isə Şərurun axar-baxarlı Zeyvə kəndi görünür.

Aqil Məmmədovla söhbət edə-edə zəminin biçinini izlədik. Aqil təhsillidir. 2002-ci ildə, yəni 12 il bundan əvvəl Şərur rayonunda “Aqrotexservis” Açıq Səhmdar Cəmiyyətini təşkil edib və onun sədri seçilib. Cəmiyyətin başlıca məşğuliyyəti əkinçilikdir. 15 nəfərdən ibarət kollektivin özünün 60 hektar torpaq sahəsi var. 100 hektar torpaq sahəsi isə icarəyə götürülüb. Ötən təsərrüfat ili də Aqil və onun işgüzar kollektivi üçün uğurlu olub. 70 hektarda taxıl becərmişdilər. Zəmilərə aqrotexniki qaydada qulluq göstərildiyindən hər hektardan 35 sentner məhsul yığılıb. Kartof, bostan-tərəvəz sahələrində də bol məhsul yetişdirilib.

Cəmiyyətin emal müəssisəsi də var. Burada Türkiyə mənşəli avadanlıqlar quraşdırılıb. Gündəlik istehsal gücü 18-20 ton olan müəssisədə un və kəpək istehsal olunur.

“Aqrotexservis” ASC bütün təsərrüfat işlərini öz texniki imkanları hesabına görür. Onların maşın-traktor parkında 25 texnika və texnoloji avadanlıq var. Dördtəkərli traktor və 3 “Sampo” markalı kombayn lizinq yolu ilə alınıb. İndi 120 hektar taxıl sahəsinin məhsulunu da kənardan texnika cəlb etmədən yığıb götürmək əzmindədirlər.

Aqil Məmmədov zəmidə iz açan kombaynın arxasınca gedib biçinin keyfiyyətini yoxlayır, küləşlə birlikdə yerə dən tökülüb-tökülmədiyini müəyyənləşdirir. Apardığı müşahidənin nəticəsindən razı qaldığı təbəssüm yağan çöhrəsindən aydın hiss olunur. Taxıl biçininin uğurla başlandığından aldığı xoş təəssüratı bizimlə həvəslə bölüşür:

– Zəmilərin bu günü üçün, doğrusu, çox zəhmət çəkmişik. Buna görə heç kəsə minnət qoya bilmərik. Çünki süfrəmizin çörəyi üçün çalışırıq. Bir də bizə qol-qanad verən dövlətimizin dəstəyidir. Taxıl əkib-becərməyimizə görə hər il dövlət büdcəsindən xeyli vəsait alırıq. Güzəştli qiymətlərlə bizə lazım olan qədər mineral gübrələr verilir. Bu il taxılımızın bol olacağı şübhəsizdir. Bundan əlavə, kartof, bostan-tərəvəz məhsulları istehsalında da böyük artıma nail olacağıq. Cəmiyyətin əsas üstünlüyü bir də ondadır ki, əkin sahələrindəki pərakəndəlik artıq aradan qaldırılıb. Əvvəllər kəndin ayrı-ayrı ərazilərində hər birinin sahəsi 1, 3, 5 hektar, yaxud bundan az, ya da çox olan taxıl, kartof, bostan-tərəvəz bitkiləri əkilərdisə, indi əkin sahələri kompleksləşdirilib. Belə olanda becərmə işlərinin səmərəsi artır, məhsuldarlıq yüksəlir. Təbii ki, istehsal olunan məhsulların maya dəyəri də əhəmiyyətli şəkildə aşağı düşür.

Aqil və onun biçinçi yoldaşlarına iş avandlığı arzulayıb rayonun geniş taxılçılıq ərazisi olan Xanlıqlar kəndinə yollandıq. Burada da indi taxılçılar ən narahat günlərini yaşayırlar. Ona görə ki, aylardan bəri, necə deyərlər, “üstündə əsdikləri” zəmilərinin məhsulunu artıq yığılır. Bilirlər ki, bu qiymətli strateji məhsul vaxtında toplanmasa... Taxılçıların çəkdiyi zəhmət hədər getməyib. 247 hektar sahənin barı-bərəkəti aşıbdaşır. Göz işlədikcə uzanan zəmilərin dənə dolmuş sapsarı sünbülü adama “gəl-gəl” deyir. Burada adam özünü ayrı bir aləmdə hiss edir, ürəkdə qəribə bir ülvi istək baş qaldırır. Taxılçıları bar-bərəkət iyi gələn bu torpağa, “sarı kəhrəba” zəmilərinə bağlayan da bu ülvi istəkdir. Biçin gedən taxıl zəmisində fermer İsa Salmanovla qısa söhbətimizdən də bir daha bunu aydın hiss etdik. Təcrübəli taxılçı dedi:

– Torpaq islahatı keçiriləndən üzübəri taxılçılıqla məşğulam. Həmişə məqsədim bu olub ki, öz ailəmin çörəyə olan tələbatını öhdəmdə olan pay torpağı və icarəyə götürdüyüm sahələr hesabına ödəyəm. Özündən demək olmasın, işdən qorxan deyiləm. Dədə-babalarımızdan da az-çox görüb-götürdüyümə görə, torpağın dilini yaxşı bilirəm. Onu da yaxşı bilirəm ki, adına ana dediyimiz bu torpaq heç zaman kiminsə istəyini gözündə qoymayıb, çəkdiyi əziyyətin əvəzini artıqlaması ilə verib. Öz təcrübəmdə bunu dəfələrlə sınaqdan çıxarmışam. Torpağın məni ümidsiz qoyduğu yadıma gəlmir. Bunun sayəsində ailəmə yaxşı dolanışıq qurmuş, kəndimizdə lavaş sexi açmışam. Ona görə də torpaqdan, əkib-becərməkdən ayrı düşmürəm. Dövlətimiz də bu sahədə biz kəndlilərə hərtərəfli qayğı göstərir, kredit, toxum, gübrə, texnika verir. Keçən ilin payızında bu ilin məhsulu üçün 30 hektar sahədə taxıl əkib-becərmişəm. Zəmilərə yaxşı qulluq göstərmişəm və gördüyünüz kimi, sünbül dənin ağırlığından necə əyilib. Artıq 10 hektarda biçin aparmışam. Məhsuldarlıq da ürəyimcədir. Hər hektardan, hələlik, 38 sentner “sarı kəhrəba” əldə etmişəm. Biçini tam başa çatdırdıqdan sonra gəlir-çıxarımı hesablayıb toyuq-cücəmin dənini, toxumluq taxılımı götürəcəyəm. Məhsulumun qalanını isə dəyirmanda üyüdüb lavaş istehsal edəcəyəm.

Tumaslı kəndinin taxıl zəmilərində də əmək bulaq kimi qaynayırdı. Burada da asta-asta irəliləyən “mavi gəmi” elin bar-bərəkətini toplayırdı. Taxılı yenicə biçilən sahədə isə dəstə-dəstə sərçələr, sığırçınlar uçuşur, kombaynın arxasınca yerə qonub dən gəzir, yem arayırdılar. Bu mənzərədən də hiss olunurdu ki, kombayn məhsulu itkisiz toplayır. Əslində, taxılın bolluğu da göz önündə idi. Kombayncı Mübariz Əliyev bunkerin dolub-dolmadığını yoxlamaq üçün oraya qalxdı. Bir anda üzünə təbəssüm yayıldı:

– Bu sahənin məhsuldarlığı 40 sentnerdən aşağı olmayacaq. Bunker dolmaq üzrədir, bir baş da biçsək, dolar, – deyib əlavə etdi: – Bu il biçinə tez başlamışıq. Havalar əlverişli keçir. Belə getsə, elin sərvətini tez və itkisiz toplaya biləcəyik.

Biçilən sahənin Sənan Məmmədova məxsus olduğunu öyrəndik. Bu torpaq mülkiyyətçisi neçə illərdir ki, taxılçılıqla məşğul olur. Bu sahədə yaxşı təcrübə qazanıb. Uğurları da ildən-ilə artır. Sənan Məmmədovun dediklərindən:

– Yanacaq da, gübrə də veriblər, pul yardımı da almışıq. Toxumun da yüksək keyfiyyətlisini əkmişik, sahəmizi aqrotexniki səviyyədə becərmişik, nəticədə, bol məhsul hasilə gətirmişik. Biçinə də söz ola bilməz. Çalışırıq ki, tez qurtaraq, sahələrdə şum işinə başlayaq. Çünki ata-babalarımız da taxılın iki yay görməsini sınaqdan çıxarıblar.

Rayonun digər kəndlərində də biçin kampaniyası mütəşəkkil keçirilir. Zəmilərə çıxan 18 kombaynın hər biri saz vəziyyətdədir, istənilən nasazlığı aradan qaldırmaq üçün lazımi ehtiyat hissələri də alınmış, biçin kampaniyasına kifayət qədər maşın-mexanizmlər cəlb olunmuşdur. Buna görə də biçilmiş taxılın xırmanlara daşınmasında sahibkarlar heç bir problemlə üzləşmirlər. Elin varını itkisiz toplamaq üçün rayonda yaradılmış qərargah da səmərəli fəaliyyət göstərir. Qərargah üzvləri bütün günü taxılçıların yanında olur, onlara zəruri məsləhətlər verir, zəmilərin yanğından mühafizə olunması üçün tədbirlər görürlər. Ümumiyyətlə, biçin kampaniyasını optimal müddətdə başa çatdırmaq üçün bütün mövcud imkanlardan səmərəli istifadə olunur.

*Şərur kəndlisi bu ilin məhsulu üçün 9184,1 hektarda bol taxıl yetişdirmişdir. Əkinin 7313,8 hektarı buğda, 1870,3 hektarı isə arpadır. İndiyədək 672 hektar sahənin məhsulu biçilib, 2028 ton taxıl istehsal olunub. Hələlik, hektarın orta məhsuldarlığı 30,2 sentnerdir.*

**Cəfər ƏLİYEV**

## Kəngərli Rayon Prokurorluğu hüquqi maarifləndirmə tədbiri keçirib

***Dünən Kəngərli Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Qarabağlar kəndində ətraf mühitin mühafizəsi, həmçinin nikahın bağlanması və nikaha xitam verilməsi qaydalarına həsr olunmuş tədbir keçirilmişdir.***

Tədbirdə Kəngərli rayon prokuroru, baş ədliyyə müşaviri Müşfiq Həsənov “Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar” mövzusunda məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, ölkəmizdə son illərdə ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadəyə dair bir sıra normativ-hüquqi aktlar qəbul edilmiş, təbiətin qorunması sahəsində mühüm addımlar atılmışdır. Nəzərə çatdırılmışdır ki, ətraf mühitə ziyan vurulması nəticəsində bitki örtüyünün, heyvanların, su obyektlərinin, bioloji sərvətlərin məhv olması, atmosferin çirklənməsi və sair hallar baş verir. Odur ki, ətraf mühitin qorunması günümüzün vacib məsələlərindən biridir və bu iş hər kəsin vətəndaşlıq borcu olmalıdır.

Vurğulanmışdır ki, ekologiyadan istifadə sahəsində inzibati məsuliyyət Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsindəki “Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar” fəslində, ekologiyadan istifadə sahəsində cinayət məsuliyyəti isə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin “Ekoloji cinayətlər” adlanan 28-ci fəslində öz əksini tapmışdır. Müşfiq Həsənov qanunsuz istifadə halları ilə əlaqədar İnzibati Xətalar və Cinayət məcəllələrindəki maddələr barədə sakinlərə məlumat vermişdir.

Sonra “Nikahın bağlanması və nikaha xitam verilməsi, valideynlərin və uşaqların hüquq və vəzifələri” mövzusunda çıxış edən Kəngərli rayon prokurorunun böyük köməkçisi Səttar Əsgərov qeyd etmişdir ki, nikah müvafiq icra hakimiyyəti orqanı tərəfindən nikaha daxil olmaq istəyən şəxslərin bu barədə ərizə verdikləri gündən bir ay sonra onların iştirakı ilə bağlanır. Üzrlü səbəb olduqda nikahın bağlanma müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən azaldıla və ya bir aydan çox olmayan müddətə uzadıla bilər. Səttar Əsgərovun sözlərinə görə, Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən olunmuşdur. Üzrlü səbəblər olduqda nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının bir ildən çox olmayaraq azaldılmasına icazə verə bilər. “Nikahın bağlanması üçün nikaha daxil olan şəxslərin yazılı razılığı və onların nikah yaşına çatmaları zəruridir”, – deyən Səttar Əsgərov bildirmişdir ki, nikaha daxil olan şəxslərin tibbi müayinəsi, habelə tibbi-genetik, tibbi-psixoloji və ailənin planlaşdırılması məsələləri üzrə məsləhət verilməsi onların razılığı ilə yaşayış yerindəki dövlət və bələdiyyə tibb müəssisələrində pulsuz həyata keçirilir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

**Kərəm HƏSƏNOV**

## 2001 nömrəli hərbi hissə

### *Şəxsi heyətin 6 (altı) aylıq ərzaq məhsullarına olan tələbatı üçün açıq təkliflər sorğusu elan edir*

Təkliflər sorğusu 10 (on) lot üzrə keçirilir.

*Lot-1: ət 1-ci növ – 24000 kq*
*Lot-2: ət konservi – 10000 kq*
*Lot-3: kartof – 120000 kq*
*Lot-4: un 1-ci növ – 120000 kq*
*Lot-5: şəkər tozu – 10000 kq*
*Lot 6: kərə yağı – 9000 kq*
*Lot-7: bitki yağı – 10000*
*Lot-8: qatılaşdırılmış süd – 8000*
*Lot-9: yarmalar (müxtəlif növ) – 28000 kq*
*Lot-10: povidlo – 6000 kq*

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, öz təklifləri sorğusunu möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün təkliflər sorğusu iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Təkliflər sorğusunda iştirak etmək istəyənlər hər lot üzrə aşağıdakı məbləği iştirak haqqında göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş təkliflər sorğusunun “Əsas şərtlər” toplusunu Naxçıvan şəhərində yerləşən 2001 nömrəli hərbi hissənin Ərzaq və yem bölməsindən (əlaqələndirici şəxs: Fariz Muradov, telefon: 055-381-26-66) ala bilərlər.

*Lot-1 – 100 manat*
*Lot-2 – 100 manat*
*Lot-3 – 100 manat*
*Lot-4 – 100 manat*
*Lot-5 – 100 manat*
*Lot 6 – 100 manat*
*Lot-7 – 100 manat*
*Lot-8 – 100 manat*
*Lot-9 – 100 manat*
*Lot-10 – 100 manat*

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.

***Təşkilat: Naxçıvan Şəhər Maliyyə Şöbəsi***
***Hesab: 320205000000100***
***VÖEN: 0200004671***

2001 nömrəli hərbi hissənin büdcədənkənar xüsusi hesabına.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Sənədlər 14 avqust 2014-cü il tarixdə saat $13^{00}$-dək qəbul olunur. Təklif zərfləri 18 avqust 2014-cü il tarixdə saat $11^{00}$-də yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***2001 nömrəli hərbi hissənin tender komissiyası***

### *İtmişdir*

Naxçıvan şəhəri, Babək məhəlləsi, bina 2, mənzil 22-də yaşayan Məmmədova Zəhra Bilal qızının adına 15.04.2010-cu il tarixdə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş 14348 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

### *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi Əli Ələsgərov və xəstəxananın kollektivi iş yoldaşları Əli Möhbalıyevə, anası
**CƏMİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkimlərindən Arzu Əmirova, Məmməd Şahverdiyev, Leyla Bağırova, Sevil Abdullayeva və Zübeydə Cəlilova iş yoldaşları Əli və Tutu Möhbalıyevlərə, anaları
**CƏMİLƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 594